# MDU-da "Qarabağ Azərbaycandır!" mövzusunda tədbir

Mingəçevir Dövlət Universitetində (MDU) professor-müəllim, inzibati-texniki heyət üzvlərinin və tələbələrin iştirakı ilə "Qarabağ Azərbaycandır!" mövzusunda tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, "ZOOM" platforması üzərindən online formatda təşkil olunan tədbiri açan MDU-nun rektoru Şahin Bayramov sentyabrın 27-dən etibarən Prezidentimizin rəhbərliyi ilə müstəqil Azərbaycanın ən yeni tarixinin şanlı səhifələrinin yazıldığını bildirib. Xalqımızın 30 ilə yaxın müddətdə səbir etdiyini və işğal altındakı əzəli torpaqlarımızın qeyd-şərtsiz azad olunmasına dair BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icra olunmadığını vurğulayan rektor, Azərbaycanın bütün mümkün diplomatik vasitələrdən istifadə etdiyini və münaqişənin danışıqlar yolu ilə həllinə çalışdığını, lakin bu səylərin nəticəsiz qaldığını diqqətə çatdırıb.

Ali Baş Komandanımızın sentyabrın 25-də BMT tribunasından Azərbaycanın haqq səsini bir daha dünya ictimaiyyətinə çatdırdığını deyən Ş.Bayramov, həmin nitqdə Azərbaycan lideri tərəfindən düşmənin növbəti təxribat hazırlıqları barədə məlumatın səsləndirildiyini bildirib. Sentyabrın 29-da "Rossiya-1" kanalında yayımlanan müsahibənin Azərbaycan Prezidentinin qətiyyətini, iradəsini və yüksək liderlik bacarıqlarını bir daha nümayiş etdirdiyini vurğulayan rektor, həmin debatın düşmən ölkə rəhbəri üçün növbəti rəzalət və rüsvayçılıq olduğunu deyib.

Son günlər ərzində düşmən təxribatına layiqli cavab verən silahlı qüvvələrimizin əldə etdiyi uğurlar münasibətilə tədbir iştirakçılarını təbrik edən Ş.Bayramov Azərbaycan əsgərinin haqq savaşı apardığını vurğulayıb. Bütün doğma torpaqlarımızın işğaldan azad olunacağı günün yaxında olduğuna əminliyini ifadə edən rektor hazırda ölkəmizdə müşahidə olunan xalq-dövlət-prezident birliyinin hər birimizi sevindirdiyini, düşməni isə qorxuya saldığını söyləyib.

Tədbirdə çıxış edən MDU-nun kafedra müdiri E.Cəfərova mövcud şəraitdə Azərbaycanın müasir siyasi tarixində ilk dəfə olaraq 50 siyasi partiyanın rəhbərləri tərəfindən birgə bəyanat imzalanmasının əhəmiyyətindən danışıb. Siyasi partiyaların birgə bəyanatını Azərbaycanda siyasi həmrəyliyin nümunəsi kimi dəyərləndirən E.Cəfərova düşmənin işğalçı siyasətinə etiraz edən bütün siyasi qüvvələrin Ali Baş Komandanımızın ətrafında sıx birləşdiyini diqqətə çatdırıb.

Tədbir "Qarabağ Azərbaycandır!" şüarı ilə yekunlaşıb. MDU ailəsinin hər bir üzvünün ölkəmizin haqq savaşında Ali Baş Komandanımızın yanında olduğu bir daha vurğulanıb.